**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**

AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

| **TƏSDİQ EDİRƏM** | **RAZILAŞDIRILIB** |
|---|---|
| ________________________ | ________________________ |
| **Tədris və müalicə işləri üzrə prorektor, prof. Sabir Əliyev** | **Tədris və təhsildə keyfiyyət təminatı şöbəsinin müd.dos.Kamandar Yaqubov** |

**NORMAL FİZİOLOGİYA KAFEDRASI**

# "050901 – HƏRBİ TİBB" ixtisasının Normal fiziologiya-2 fənni üzrə TƏDRİS PROQRAMI

**BAKI – 2023**

**Sillabusun mündəricatı:**

1. Fənnə dair qısa məlumat;
2. “Normal fiziologiya-2” fənnin tədrisinin ixtisas üzrə məqsədi və hədəfləri;
3. “Normal fiziologiya-2” fənninin tədrisinin nəticəsində formalaşan kompetensiyalar;
4. “Normal fiziologiya-2” fənninin tədrisi üzrə olan mövzular (mövzu-təqvim planı);
5. Fənnin tədrisində istifdə ediləcək interaktiv tədris metodları;
6. Fənn üzrə ölçmə - qiymətləndirmə metodu;
7. Tələbələrin semestr ərzində fənn üzrə iş yükü
8. Metodiki təminat.
9. “Normal fiziologiya-2” fənninin təlim nəticələri ilə Proqramın Təlim Nəticələri ilə əlaqəliliyi;
10. Fənnin tədrisinin Proqramın Təlim Nəticələri ilə əlaqə səviyyəsi

## FƏNNİN TƏDRİS PLANI

**(Fənnə dair qısa məlumat)**

| Fənnin kodu | Fənnin adı | Dərsin növü | Tədris olunduğu | | AKTS |
|---|---|---|---|---|---|
| | | | Kurs | Semestr | |
| İPF-B10 | Normal fiziologiya-2 | Məcburi | 2 | IV | 5 |

| Tədris dili | |
|---|---|
| | Azərbaycan |

| Fənni tədris edən müəllim(lər) | |
|---|---|
| | 1. Prof. Məmmədov Arif Məmməd oğlu<br>2. Prof. Kazımov Əhməd Hacı oğlu<br>3. Dos. Mahmudov Rəşid Mahmud oğlu<br>4. Dos. İbrahimova Əzizə Şükür qızı<br>5. Dos. Baxşıyeva Zemfira Tağı qızı<br>6. Dos. İsmayılov Taryel Mustafa oğlu<br>7. Dos. Həsənova Gülcamal Əmir qızı<br>8. Dos. Vəliyeva Gülnarə Cəfər qızı<br>9. Dos. Əliyeva Dilarə Maqsud qızı<br>10. Dos. Əliyev Aqil Xosrov oğlu<br>11. Dos. Ağayeva Asya Hacı qızı<br>12. B/m Rüstəmova Afaq Fətulla qızı<br>13. B/m. Əliyeva Sevda İbad qızı<br>14. B/m. Məmmədli Şahmar Əjdər oğlu<br>15. Ass. Cəfərova Aygün Mirdamət qızı<br>16. Ass. Qəniyeva Fidan İlqar qızı<br>17. Ass. Rüstəmzadə Azadə Azad<br>18. Eminova Günay Aqil qızı<br>19. Ass. Seyidbəyli Mehri İsa qızı<br>20. Ass. Bayramov Adil Allahyar oğlu<br>21. Müəl. Abaszadə Zümrüd Əmirqulu<br>22. Müəl. Nəsirova Günel İlham qızı<br>23. Müəl. Eyvazova Şəhla Rahid qızı<br>24. Müəl. Həşimova Aysel Rafiq qızı |

| Fənnin ardıcıllıq şərtləri | |
|---|---|
| **Öncə tədrisi zəruri olan fənlər (Prerekvizit)** | Anatomiya II, Anatomiya III, Fiziologiya -I |

| | |
|---|---|
| **Özündən sonra tədrisini saxladığı fənlər** | Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olun olunması zərurəti yoxdur |

**Fənnin məqsədi**

Normal fiziologiya – səhiyyənin nəzəri əsasıdır. İnsan fiziologiyası haqqında ümumi və xüsusi məlumatları və sağlam orqanizmin müxtəlif sistemlərinin, orqanlarının, toxumalarının və hüceyrələrinin normal işləmə mexanizmlərini və onların tənzim yollarını öyrədir.

Normal fiziologiyanın qarşıya qoyduğu məqsəd praktik sağlam insanın funksiyalarını, xüsusən də onun müxtəlif ekstremal amillərə qarşı dözümlülüyünün müxanizmlərini öyrənməkdir.

Fənn sağlam orqanizmin müxtəlif funksiyaları və onların tənzim mexanizmlərinin analitik-sintetik təhlili əsasında tədris olunmalıdır.

Belə amillərə həddən çox fiziki və emosional gərginlik, Günəş radiasiyasl, elektromaqnit sahəsi, ətraf mühitin çox saylı texniki tullantılarla çirklənməsi və s. aiddir.

Uzun əsrlər boyu həkimlərin diqqəti ilk növbədə xəstə insanlara yönəlmişdir. Lakin səhiyyənin əsas vəzifəsi ondan ibarətdir ki, minlərlə müxtəlif səbəblərə baxmayaraq, sağlam orqanizmi xəstələnməyə qoymasın, yəni elə şərait yaratsın ki, insan ən müxtəlif sosial, ekoloji və məişət şəraitində sağlam qala bilsin. Təbabətin profilaktik istiqaməti bundan ibarətdir və bu işdə birinci vəzifə fiziologiyanın üzərinə düşür. Tibb sahəsində çalışan mütəxəssislər yaxşı başa düşürlər ki, insan sağlamlığının mexanizmini yalnız elmi biliklər əsasında öyrənmək olar.

Qeyd edilənləri nəzərə alaraq, tərtib olunan proqram həm fizioloji, həm də funksional sistemlərin fəaliyyətinin analizinə aid müasir elmi nailiyyətləri özündə cəmləşdirir. Proqram giriş və 3 hissədən: ümumi fiziologiya, xüsusi fiziologiya və insanın inteqrativ davranışının fizioloji əsaslarından ibarətdir.

**Fənnin məzmunu**

Tibb Universiteti üçün insan fiziologiyası üzrə tərtib olunan proqram ümumi praktik həkimin hazırlanması məqsədilə xəstəliklərin qarşısını almağa, sağlamlığın müdafiəsinə, saxlanmasına, sağlam həyat tərzinə, həmçinin fəal həyat fəaliyyəti və iş qabiliyyətinə doğru yönəldilmişdir.

Fiziologiya sağlam insanın həyat fəaliyyəti və sağlam həyat tərzinin fizioloji əsasları haqda elm olub, tibbin metodoloji fundamenti, xüsusilə onun profilaktik istiqamətidir. Fiziologiya həmçinin sağlamlıq diaqnostikasının elmi əsası və insan orqanizminin funksional fəallığının proqnozlaşdırılmasıdır.

Fiziologiya klinikaya qədər bölmədə tələbələrin tibbi-bioloji təhsilinin başa çatmış tədris fənni olub, üzvü surətdə biokimya, anatomiya, histologiya, patofiziologiya, farmakologiya fənnlərinin propedevtikası ilə əlaqədədir. Bütün bunlar tibbi-bioloji və klinik fənnlərin tədrisinin yüksəldilməsi və müasir həkimin hazırlığının təkmilləşməsi üçün nəzərdə tutulur.

| Fənnin təlim nəticəsi | |
|---|---|
| **BİLİK** | 1. Qanın əsas funksiyaları. Qanın tərkibi, qan qrupları. Qanın laxtalanma prosesini izah etmək<br>2. Qan dövranının funksiyaları, ürək əzələsinin anatomik fizioloji xüsusiyyətləri. Ürək fəaliyyətinin tənzimi. Ürək fəaliyyətinin xarici əlamətləri. Fonokardioqrafiya, elektrokardioqrafiya. Hemodinamikanın əsas qanunlarını izah etmək.<br>3. Orqanizm üçün tənəffüsün rolunun, nəfəsalma və nəfəsvermənin mexanizminin, tənəffüsün tənzimini izah etmək<br>4. Həzmin orqanizm üçün əhəmiyyəti, ağız boşluğunda, mədə və bağırsaqda, həzm kanalında gedən sorulma proseslərini, aclıq və toxluq hissiyyatının fizioloji əsaslarını izah etmək.<br>5. Hormonların ümumi xüsusiyyətlərini, hipotalamus, hipofiz, böyrəküstü, mədəaltı, qalxanabənzər, tinus və epifizin hormonal funksiyasını izah etmək.<br>6. Böyrəklərin funksiyalarını, sidiyin əmələ gəlmə mexanizmini izah etmək<br>7. Analizatorların ümumi və xüsusi fiziologiyasını, görmə, eşitmə, dad, qoxu, ağrı reseptorlarının mexanizmini izah etmək.<br>8. Ali sinir fəaliyyətinin, yaddaş, motuvasiya və emosiyanın mexanizmini izah etmək. |
| **BACARIQ** | 9. Sağlam orqanizmin funksiyalarının ən vacib tədqiqat üsullarını öyrənmək<br>10. Laborator işlərini sərbəst yerinə yetirmək, qan qruplarını, EKG, FKG və s.<br>11. Eksperimental heyvanlarda təcrübə qoymaq |
| **DAVRANIŞ** | 12. Müayinə materialı götürərkən etik qaydalara riayət edir<br>13. Laboratoriyada işləyərkən təhlükəsizlik qaydalarına riayət etmək. |

| **Mövzu təqvim planı** | | |
|---|---|---|
| | **Mövzular** | |
| **Həftə** | **Nəzəri təlim** | **Təcrübi (tətbiqi) təlim** |
| 1 | **Qanın fiziologiyası.** Qanın funksiyaları, fiziki kimyəvi xüsusiyyətləri. Qanın formalı elementləri. Eritrositlər, elitropoyez. Leykositlər, leykositar formula. Qanın laxtalanma və laxtalanma əleyhinə mexanizimləri. Qan qrupları. | **Qanın fiziologiyası. Fiziki-kimyəvi xüsusiyyətləri.**<br>Təcrübə işləri:<br>1.Qanın plazma və formalı elementlərə ayrılması. |

| | | |
|---|---|---|
| | Qanın həcmini, fəal reaksiyasını (PH), osmotik təzyiqini, qanda qlükozanın miqdarını sabit saxlayan funksional sistem. | 2. Hemoliz.Eritrositlərin osmotik rezistentliyinin təyini.<br>3.Eritositlərin çökmə sürətinin təyini. |
| 2 | **Ürək fəaliyyətinin fiziologiyası.**<br>Ürək əzələsinin fizioloji xüsusiyyətləri. Ürək tsikli (kardiotsikl). Ürəyin avtomatiyası. İşlək miokard hüceyrələrində elektrik prosesləri. Ürək fəaliyyətinin tənzimi (sinir,reflektor, humoral). | **Eritrositlər. Hemoqlobin. Qan qrupları.**<br>Təcrübə işləri:<br>1.Eritrositlərin sayılması.<br>2. Hemoqlobinin qanda miqdarının təyini (A.Sali üsulu ilə )<br>3. Qan qrupları və rezus faktorun təyini. |
| 3 | **Ürək fəaliyyətinin xarici əlamətləri.** Ürəkdə elektrik hadisələri. Elektrokardioqrammanın analizi. Ürəyin yığılma fəaliyyətinin tədqiqat üsulları. Ürəyin mexaniki və səs təzahürləri. Fonokardioqrafiya. | **Leykositlər. Leykoformula. Trombositlər. Laxtalanma mexanizmi.**<br>Təcrübə işləri:<br>1. Leykositlərin sayılması.<br>2. Trombositlərin sayılması.<br>3. Qanın laxtalanma müddətinin təyini |
| 4 | **Damar sisteminin fiziologiyası.** Hemodinamikanın əsas qanunları. Damarların funksional xüsusiyyətləri. Arterial və venoz nəbz. Damarların innervasiyası. Damar hərəki mərkəz. Damar tonusunun sinir, humoral və reflektor tənzimi. Arterial təzyiqin öz-özünü tənzimi. Kicik qan dövranı, koronar qan dövranı və beyin qan dövranının səciyyəvi xüsusiyyətləri. | **Ürək əzələsinin fizioloji xüsusiyyətləri. Ürək fəaliyyətinin tənzimi (sinir, humoral, reflektoru).**<br>Təcrübə işləri:<br>1.Qurbağanın ürək fəaliyyətinin qrafik qeydi.<br>2.Qurbağa ürəyinin avtomatizmi. Stanniusun liqaturaları.<br>3.Ürək fəaliyyətinin müxtəlif fazalarında qurbağanın ürək əzələsinin oyanıcılıq qabiliyyətinin öyrənilməsi-ekstrasistolanın müşahidəsi<br>4.Qurbağanın ürək fəaliyyətinin humoral tənzimi (Ştraube təcrübəsi).<br>5.Qurbağanın ürək fəaliyyətinin reflektor tənzimi (Holts refleksi).<br>6. İnsanda göz-ürək refleksinin müşahidəsi (Aşner-Danini refleksi) |
| 5 | **Tənəffüs sisteminin fiziologiyası.** Xarici tənəffüs. Tənəffüs əzələləri. Ağciyərlərin ventilyasiyası. Plevra boşluğunda mənfi təzyiq. Qaz mübadiləsinin mexanizmi. Qazların qanla daşınması. Tənəffüs mərkəzi. Tənəffüsün tənzimində xemo və mexano reseptorların rolu. Tənəffüsün funksional sistemi. Yenidöğulmuşun ilk nəfəs alması. Aşağı və yuksək atmosfer təzyiqi şəraitində tənəffüs. Akklimatizasiya. | **Ürək fəaliyyətinin xarici əlamətləri. EKQ, ürək tonları.**<br>Təcrübə işləri:<br>1.Elektrokardioqramın yazılması (EKQ) və onun təhlili.<br>2.İnsanlarda zirvə vurğusunun təyini.<br>3.Ürək tonlarının auskultasiyası. Fonokardioqrafiya.<br>4.Arterial nəbzin təyini və onun xüsusiyyətlərinin öyrənilməsi. Arterial və venoz nəbzin qrafik qeydi (sfiqmoqrafiya, fleboqrafiya). |
| 6 | **Həzm sistemi fiziologiyası**. Qidalanmanın funksional sistemi. Aclıq | **Damar sisteminin fiziologiyası. Hemodinamikanın əsas qanunları.** |

| | | |
|---|---|---|
| | və toxluğun mərkəzi mexanizmləri. Endogen, eksogen qidalanma, sensor və metabolik toxluq. Hüceyrədaxili və hüceyrəxarici həzm. Ağız boşluğunda həzm. Udma aktının mexanizmi. Mədədə, on iki barmaq bağırsaqda, nazik və yoğun bağırsaqlarda həzm. Sorulmanın mexanizmi. Defekasiya aktını təmin edən funksional sistem. | Təcrübə işləri:<br>1.İnsanda arterial qan təzyiqinin ölçülməsi (Riva-Roççi və Korotkov üsulları).<br>2.Qurbağanın üzgəc pərdəsində və dilində qan dövranının müşahidəsi. Damar mənfəzinin sinir tənzimi (Valter təcrübəsi). |
| 7 | **Maddələr və enerji mübadiləsi. Termotənzim.** Əsas mübadilə. Vasitəsiz və vasitəli kalorimetriya, tənəffüs əmsalı. Qida maddələrinin kalori baxımından dəyərliliyi. Bədənin temperatur sxemi. İstiliyin kimyəvi və fiziki tənzimi. Temperatur tənzimi mərkəzləri. | **Tənəffüsün fiziologiyası.**<br>Təcrübə işləri:<br>1.Ağciyər ventilyasiyasının mexanikası. Nəfəsalma və nəfəsvermənin müşahidəsi (Donders modeli, qabırğaların fəaliyyətinin sxemi).<br>2.Spirometriya. Ağciyərlərin həyat tutumunun və dəqiqəlik həcminin təyini.<br>3.Udma aktı zamanı tənəffüsün reflektor dayanmasının müşahidəsi. |
| 8 | **İfrağat sisteminin fiziologiyası** Sidik yaranmanın funksional sistemi. Sidiyin əmələgəlmə mexanizmi: filtrasiya, kanalcıq reabsorbsiyası, kanalcıq sekresiyası. Sidik yaranmasının tənzimi. Filtrasiya və reabsorbsiyanı təmin edən böyrək və böyrəkxarici faktorlar. Böyrəklərin müxtəlif funksional sistemlərdə iştirakı. Sidik ixracının mexanizmi. Sidiyin tərkibi, miqdarı. Süni böyrək. Tər ifrazı. | **Həzm sisteminin fiziologiyası.**<br>Təcrübə işləri:<br>1.İnsanda ağız suyu ifrazının müşahidəsi.<br>2.Dovşanda xolinesteraza ingibitorlarının ağız suyu ifrazına təsirinin müşahidəsi.<br>3.Eksperimentdə mədə şirəsinin alınması.<br>4.Nazik bağırsaqda müxtəlif qatılıqlı məhlulların sorulmasının müşahidəsi.<br>5.Dovşanda hipotalamusun motivasiya zonalarının elektrik cərəyanı ilə qıcıqlandırmaqla aclıq və toxluq hissiyatlarının müşahidəsi. |
| 9 | **Ali sinir fəaliyyətinin fiziologiyası.** Şərti və şərtsiz reflekslər. Şərti reflekslərin yaradılması qaydaları. Şərti reflekslərin təsnifatı. Şərti reflektor fəaliyyətin ləngiməsi. Davranış aktlarının sistem arxitektonikası. Ali sinir fəaliyyətinin tipləri. Eksperimental nevrozlar. Birinci və ikinci siqnal sistemi. | **Aralıq imtahan** |
| 10 | **Emosiyalar**. Ümumi xüsusiyyətləri, emosiyaların tibbi aspektləri, emosiyalar haqqında nəzəriyyələr. Emosional stress.<br>**Motivasiyalar**, təsnifatı, xüsusiyyətləri. Motivasiya haqqında nəzəriyyələr.<br>**Yaddaş.** Yaddaşın növləri. Qısa və uzun müddətli yaddaş haqqında nəzəriyyələr. Yaddaşın enqramı. | **İnsanda enerji mübadiləsi. Bədən temperaturunun tənzimi.**<br>Təcrübə işləri:<br>1.Əsas mübadilənin təyini<br>2.Gündəlik qida rasionunun tərtib edilməsi.<br>3. Dəridə olan termoteseptorların yüksək və aşağı temperartura adaptasiyası. |

| | | |
|---|---|---|
| | **Yuxu.** Yuxunun bioloji əhəmiyyəti, obyektiv əlamətləri. Yuxu haqqında nəzəriyyələr. Yuxunun elektroensefaloqrafik göstəriciləri. Yuxunun neyrofizioloji əsasları, onun mexanizimində bioloji fəal maddələrin rolu. | |
| 11 | | **İfrağat sisteminin fiziologiyası.**<br>Təcrübə işləri:<br>1.Sidiyin ümumi analizi.<br>2.Adrenalinin və pituitrinin diurezə təsiri. |
| 12 | | **Ali sinir fəaliyyətinin fiziologiyası.** Təcrübə işləri:<br>1. İnsanda söz qıcığının təsiri ilə şərti ağız suyu ifrazının müşahidəsi.<br>2. İnsanda temperament tiplərinin təyini. |
| 13 | | **Davraniş aktinin sistem arxitektonikasi. Emosiya, motivasiya, yaddaş.**<br>1.İnsanda ali sinir fəaliyyətinin xüsusiyyətlərinin öyrənilməsi.<br>2. İnsanda qısa müddətli eşitmə yaddaşının yaranması və təyini. |
| 14 | | **Yekun dərs.** |
| 15 | | |

| **Ölçmə - qiymətləndirmə** | | |
|---|---|---|
| | **Qiymətləndirmə üsulları** | **Qiymət (bal)** |
| | İmtahan (final) | |
| | Cari qiymətləndirmə (kollokvium 1) | |
| | Cari qiymətləndirmə (kollokvium 2) | |
| | Cari qiymətləndirmə (kollokvium 3) | |
| | Davamiyyətə görə qiymətləndirmə | |
| | Sərbəst iş (Tələbələrin qrup layihəsi) | |
| | **CƏMİ** | |

| Fənnin tədrisində istifadə ediləcək interaktiv tədris metodları | |
|---|---|
| | - mühazirə, seminar, praktiki tapşırıqlar;<br>- təqdimat və müzakirə, debatlar;<br>- ekspert metodu; video va audio mühazirələr; distant təhsil;<br>- araşdırma-tədqiqat; layihə, qrup qiymətləndirməsi;<br>- problem əsaslı öyrənmə, simulyasiyalar;<br>- qrup işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi və s. |

| Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun fənn üzrə biliyinin qiymətləndirilməsi | | | |
|---|---|---|---|
| | 51 baldan aşağı olduqda | “qeyri-kafi” | F |
| | 51-60 bal | “qənaətbəxş” | E |
| | 61-70 bal | “kafi” | D |
| | 71-80 bal | “yaxşı” | C |
| | 81-90 bal | “çox yaxşı” | B |
| | 91-100 bal | “əla” | A |

| Semestr üzrə İş yükü | | | | |
|---|---|---|---|---|
| | **Fəaliyyət** | **Sayı** | **Müddət (saat)** | **Cəmi iş yükü (saat)** |
| | Cari qiymətləndirmə (kollokvium) | 1 | 4 | 4 |
| | Semestr imtahanı | 1 | 1 | 1 |
| | Mühazirə dərsləri | 10 | 2 | 20 |
| | Laboratoriya (praktik) dərsləri | 14 | 4 | 56 |
| | Sərbəst hazırlıq | | | 74 |
| | **Cəmi iş yükü** | | | 155 |

| Tövsiyyə olunan ədəbiyyat | |
|---|---|
| | 1. Normal fiziologiya” A.M.Məmmədov, K.V.Sudakov. 2012 |

| | |
|---|---|
| | 2. Нормальная физиология» под редакцией акад. К.В.Судакова. 2012, 2018<br>3. «Tibbi fiziologiya» dərslik. R.M.Mahmudov, 2017<br>4. Нормальная физиология. Пособие для поступающих в резидентуру.З.Т.Бахшиева, А.Ш.Рустамзаде, А.Х.Алиев, Г.А.Гасанова. 2019<br>5. «Физиология человека» Г.И. Косицкого. М., «Медицина», 1985 г.<br>6. "Normal fiziologiyadan təcrübə məşğələləri" dərslik. A.M.Məmmədov, S.H.Hüseynov, Z.T. Əlizadə, G.Ə.Həsənova, A.E.Vələdov. 2014<br>7. Məmmədov A.M., Z.T. Əlizadə, Ə.Ş.Rüstəmzadə. Normal fiziologiya üzrə testlər. Azərbaycan və rus dillərində. Bakı, "Təbib" nəşr-2010, 2013, 2015, 495 səh<br>8. Məmmədov A.M., G.Ə.Həsənova,Z.T.Əlizadə, Ə.Ş.Rüstəmzadə. Normal fiziologiya üzrə testlər. Ingilis dilində. Bakı, "Təbib" nəşr-2015, 495 səh |

**İMZALAYANLAR:**

1. **Kafedra müdiri:** prof. Məmmədov Arif Məmməd oğlu

2. **Fənni tədris edən müəllimlər:** prof. Məmmədov Arif Məmməd oğlu, prof. Kazımov Əhməd Hacı oğlu, dos. Mahmudov Rəşid Mahmud oğlu, dos. İbrahimova Əzizə Şükür qızı, dos. Baxşıyeva Zemfira Tağı qızı, dos. İsmayılov Taryel Mustafa oğlu, dos. Həsənova Gülcamal Əmir qızı, dos. Vəliyeva Gülnarə Cəfər qızı, dos. Əliyeva Dilarə Maqsud qızı, dos. Əliyev Aqil Xosrov oğlu, dos. Ağayeva Asya Hacı qızı, b/m. Əliyeva Sevda İbad qızı, b/m. Məmmədli Şahmar Əjdər oğlu, b/m. Rüstəmova Afaq Fətulla qızı , ass. Cəfərova Aygün Mirdamət qızı, ass. Qəniyeva Fidan İlqar qızı, ass. Rüstəmzadə Azadə Azad, ass. Eminova Günay Aqil qızı, ass. Seyidbəyli Mehri İsa qızı, ass. Bayramov Adil Allahyar oğlu, müəl. Abaszadə Zümrüd Əmirqulu, müəl. Nəsirova Günel İlham qızı, müəl. Eyvazova Şəhla Rahid qızı, müəl. Həşimova Aysel Rafiq qızı

3. **Əmək bazarının nümayəndəsi:**

| **"Normal fiziologiya-2" fənninin təlim nəticələrinin İxtisas Proqramın Təlim Nəticələri ilə əlaqəliliyi** |
|---|
| **Fənnin Təlim Nəticələri** |

| (FTN) | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təlim nəticəsi 1 | | | | | | | | | X | |
| Təlim nəticəsi 2 | | | | | | | | X | | |
| Təlim nəticəsi 3 | | | | | | | X | | | |
| Təlim nəticəsi 4 | | | | | | | | | | X |
| Təlim nəticəsi 5 | | | | | | | | X | | |
| Təlim nəticəsi 6 | | | | | | | X | | | |
| Təlim nəticəsi 7 | | | | | | | | | X | |
| Təlim nəticəsi 8 | | | | | | | | | | |
| Təlim nəticəsi 9 | | | | | | | | | | |

**Fənnin tədrisinin Proqramın Təlim Nəticələri ilə əlaqə səviyyəsi**

| Proqramın Təlim Nəticəsi (PTN) | Töhfə səviyyəsi* | | | | |
|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 |
| 1. Məzun Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair biliklərə, Azərbaycan xalqının milli-mənəvi, mədəni-tarixi dəyərlərini ictimai həyat və fəaliyyətində tətbiq etmək və Azərbaycan dövlətinin maraqlarını qorumaq qabiliyyətinə malik olur | | | | | |
| 2. Məzun Azərbaycan Respublikasının rəsmi dövlət dili olan Azərbaycan dili ilə yanaşı ən azı bir xarici dildə işgüzar və akademik kommunikasiyaya sahib olub, bu imkandan öz peşə fəaliyyətində istifadə etmək, xarici dildə gündəlik fəaliyyəti ilə bağlı ünsiyyət qurmaq, fikrini şifahi və yazılı ifadə etmək, xəstə, xəstə yaxınları, digər tibb işçiləri, cəmiyyət, müvafiq qurumlar, media ilə yazılı və şifahi ünsiyyət qurmaq, ixtisasına aid xarici ədəbiyyatdan istifadə etmək bacarığına malik olur | | | | | |
| 3. Məzun peşəsi ilə əlaqəli elmi məlumatları toplamaq üçün sərbəst şəkildə informasiya-kommunikasiya texnologiyalarından istifadə etməyi, elektron formada | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| yazışmalar aparmağı, əldə etidyi məlumatların və mənbələrinin dürüstlüyünü qiymətləndirməyi və elmi məlumatları peşə təcrübəsində tətbiq etməyi bacarır | | | | | |
| 4. Məzun peşəsi ilə əlaqəli qanunvericiliyi, tibbi etik qaydaları bilir, sərbəst şəkildə peşə fəaliyyəti ilə məşğul olarkən peşəsi ilə əlaqəli qanunvericiliyə, qaydalara və etik prinsiplərə riayət etməyi bacarır | | | | | |
| 5. Məzun fərdi peşəkar inkişafını planlaşdıraraq ömürboyu təhsil prinsiplərini həyata keçirməyi, zəruri hallarda həmkarlarından kömək istəməyi, lazım gəldikdə öz bilik və bacarıqlarını həmkarları ilə bölüşməyi, peşəsi ilə əlaqəli maarifləndirmə işini və tibbin müxtəlif sahələrində çalışan insanlarla komanda işi aparmağı bacarır | | | | | |
| 6. Məzun məlumatları və məlumat mənbələrini təhlil edərək qiymətləndirməyi, elmi-tədqiqat üsullarını istifadə edərək bioetik prinsiplər çərçivəsində müstəqil və ya kollektiv formada araşdırma aparmağı bacarır | | | | | |
| 7. Məzun təməl və klinik tibbi biliklərə sahib olur, təməl bilikləri sağlam və xəstəlik vəziyyətlərində, klinik halların araşdırılmasında istifadə etməyi bacarır; anamnez, müayinə, müdaxilə kimi əsas klinik bacarıqlara sahib olur və tətbiq edir | | | | | |
| 8. Məzun fərdi və ictimai yönümlü tibb xidməti göstərmək üçün təməl, klinik və sosial elmlərə ait bilik və bacarıqlara sahib olur, xəstələri din, dil, irq, cins, siyasi mənsubiyyət baxımından ayrıseçkilik etmədən, etik prinsiplər kontekstində qiymətləndirərək, ilkin səhiyyə xidmətinə xas olan profilaktik, müalicə və reabilitasiya üzrə həkimlik bacarığını yerinə yetirir və bunların qeydiyyatını aparmağı bacarır, bu zaman insani dəyərləri diqqət mərkəzində tutaraq xəstələrin, işçilərin təhlükəsizliyini, məxfiliyini qorumağı bacarır | | | | | |
| 9. Məzun diaqnostika və müalicə yanaşmalarını xəstə və xəstəliklər baxımından qiymətləndirib şərh edir, rastlaşdığı klinik vəziyyətə uyğun müayinə və müalicə üsullarını seçməyi və seçiminə uyğun həyata keçirməyi bacarır | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 10. Məzun dinc və müharibə dövründə hərbi qulluqçuların sağlamlılığına təsir edən amillərin təsir mexanizmi, şəraiti, səbəb-nəticə qanunauyğunluqları, tibb xidmətinin icra məsuliyyəti daşıdığı sanitariya-gigiyenik tədbirlərin məzmunu, həcmi və həyata keçirilməsi qaydalarını bilir | | | | | |
| 11. Məzun tibb xidmətinin işinin planlaşdırılması, tibb xidmətinin işini tənzimləyən rəhbəredici sənədlər,hərbi hissə tibb məntəqəsinin təyinatı, təşkilat-ştat quruluşu, işinin təşkili və şəxsi heyətinin funksional təyinatına görə vəzifələrini, sülh və meharibə dövrlərində tibb xidmətini idarəetmənin əsaslarını bilir | | | | | |
| 12. Məzun odlu silah yaralarının morfoloji xüsusiyyətlərini, mina partlayış travmalarının xüsusiyyətləri, qiymətləndirilməsi, ilkin yanaşma prinsiplərini (ABCDE) və tibbi təxliyyə mərhələlərində müalicə prinsiplərini mənimsəyir | | | | | |
| 13. Məzun hərbi qulluqçular və onların qarşılıqlı münasibətləri haqqında nizamnamə tələblərini, komandirlərin və digər birbaşa rəislərin ümumi vəzifələrini, hərbi qulluqçuların yerləşdirilməsi, vaxtın bölüşdürülməsi və gündəlik nizam qaydalarını, qoşunlar təlim mərkəzlərində və düşərgələrdə yerləşərkən daxili xidmətin xüsusiyyətlərini, hərbi qulluqçuların ayrı-ayrı kateqoriyaları üzrə tətbiq edilən həvəsləndirmə metodlarını, hərbi intizamın pozulmasına görə tətbiq edilən cəzaları bilməli, hərbi bölmələrin döyüş taktikası, ümumqoşun döyüşünün əsasları və növləri haqda məlumatlara sahib olur | | | | | |
| 14. Məzun döyüş zəhərləyici maddələrin fiziki-kimyəvi xassələrini, kimyəvi və nüvə silahının xəsarət ocaqlarının tibbi-taktiki səciyyəsini və tibbi təxliyə mərhələlərində tibb xidmətinin icra etdiyi tədbirləri həyata keçirir | | | | | |

*1 Ən aşağı, 2 Aşağı, 3 Orta, 4 Yüksək, 5 Çok yüksək